Salam hörmətli Həmkarlar.

UNEC-də ixtisas fənləri üzrə doktornaturaya qəbul imtahanı barədə məlumatları diqqətinizə təqdim edirik:

İmtahanlara Xarici dil fənnindən keçid balını topayan (25 bal) və Fəsəfə imtahanından məqbul qiymət alan iddiaçılar buraxılır.

İmtahanların 16-17 mart 2021-ci il tarixdə saat 10.00-də UNEC-in 4-cü korpusunda (Bakı Təhsil İdarəsinin yanında) tarixlərində keçirilməsi planlaşdırılır. İmtahanın keçirilmə tarixi və yeri ilə bağlı hər-hansı dəyişilklik olduğu təqdirdə Sizə əlavə məlumat veriləcək.

İmtahan yazılı və şifahi formada keçiriləcək. İmtahanda hər biri 10 balla qiymətləndirilən 5 suala cavab verilcək. Biletə düşən 4 suala yazılı cavab verilməlidir. 1 sual isə İmtahan Komissiyası tərəfindən şifahi formada veriləcək. Yazılı sualların cavablandırılması üçün 2 saat vaxt ayrılır. Yazılı imtahan bitən kimi iddiaçı İmtahan Komissiyası qarşısında 1 şifahi sualı cavablandırmalıdır (şifahi sualı cavablandırmaqdan imtina edən iddiaçı müsabiqəyə buraxılmır). Bu prosesə 30 dəqiqə vaxt ayrılır. Şifahi sualın cavablandırılması zamanı biletlərdə olan yazılı suallara cavablarınızla bağlı dəqiqləşdirici sualar da veriləcək. İmtahanda http://unec.edu.az/doktorantura-sobesi/ veb səhifəsində yerləşdiridiyimiz nümunəvi saullar (hər ixtisas üzrə "ixtisasın adı və "qəbul" sözləri yazılmış fayllar) ətrafında nəzəri və praktiki xarakterli suallardan istifadə ediləcək. UNEC-də ixtisas fənni üzrə keçid balı barədə əlavə məlumat veriləcək.

İmtahan prosesində hər hansı yazılı materiallardan, mobil telefon və digər texniki vasitələrdən istifadəyə yol verilmir.

Sizə uğurlar arzulayırıq.